# Azərbaycanın ŞƏT-lə əlaqələrinin inkişafı regional təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa xidmət edir

**Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Dövlət Başçıları Şurasının illik sammiti keçirilir. Bu sammit təşkilat tarixində ən geniş tərkibli toplantı hesab olunur. İclasda 21 ölkənin dövlət və hökumət başçıları, eləcə də 10 beynəlxalq qurumun təmsilçisi iştirak edirlər. Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran Prezidenti Məsud Pezeşkian, Ermənistanın baş naziri Nikol Paşinyan, Rusiya Prezidenti Vladimir Putin, Hindistanın baş naziri Narendra Modi və digər üzv ölkələrin liderləri də iştirak edirlər.**

Başlıca məqsədləri üzv dövlətlər arasında etimadın möhkəmləndirilməsi, müxtəlif sahələrdə - siyasət, ticarət, təhsil, enerji, nəqliyyat, mədəniyyət və ətraf mühit daxil olmaqla - əməkdaşlığın gücləndirilməsi, regionda sabitliyin və təhlükəsizliyin qorunması, həmçinin beynəlxalq arenada yeni əməkdaşlıq istiqamətlərinin qurulması olan ŞƏT 2001-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan tərəfindən təsis olunub. Zamanla əhatə dairəsini xeyli genişləndirən ŞƏT-ə 2017-ci ildə Hindistan və Pakistan, 2023-cü ildə İran, 2024-cü ildə isə Belarus üzv qəbul olunub. Avrasiya ərazisinin 60 faizini, dünya əhalisinin 40 faizini, dünya üzrə ümumi məhsulun isə 25 faizini özündə birləşdirən təşkilat regionunda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın əsas platformalarından biri sayılır.

Mövzunu şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov AZƏRTAC-a bildirib ki, Azərbaycan bu təşkilatda dialoq üzrə tərəfdaş statusuna malikdir və 2024-cü ildə bu statusun müşahidəçi ölkəyə çevrilməsi üçün rəsmi müraciət edib.



"Azərbaycanın davamlı inkişafı, regional gücə çevrilməsi, əlverişli coğrafi mövqeyi və həyata keçirdiyi böyük layihələr ölkənin ŞƏT-lə münasibətlərinə müsbət təsir göstərir. Xüsusilə də Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinə verdiyi dəstək, Trans-Xəzər nəqliyyat marşrutunun - Orta dəhlizin üstünlükləri, bu ölkəni təşkilat üçün əhəmiyyətli tərəfdaşa çevirir.

2022-ci ilin sentyabrında Səmərqənddə keçirilmiş sammitdə Prezident İlham Əliyev çıxış edərək qeyd etmişdi ki, 44 günlük Vətən müharibəsində əldə olunan qələbədən sonra regionda nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı üçün yeni imkanlar açılıb. Azərbaycanın bu sahədə təşəbbüsləri Şərq-Qərb və Şimal-Cənub layihələrinin gerçəkləşməsində mühüm rol oynayıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükaşırma qabiliyyəti 15 milyon ton təşkil edir və bu göstərici 25 milyon tona qədər artırıla bilər. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil və yüzlərlə kilometr dəmir yolları çəkilib. Azərbaycan həm də regionun ən böyük mülki hava yük donanmalarından birinə sahibdir və hazırda 9 beynəlxalq hava limanı fəaliyyət göstərir. Azad olunmuş ərazilərdə müasir standartlara cavab verən 3 yeni hava limanı istifadəyə verilib. Zəngəzur dəhlizinin açılması istiqamətində də mühüm addımlar atılır və Azərbaycan bu məsələdə öhdəliklərini vaxtında və yüksək səviyyədə yerinə yetirir. Bu dəhliz həm Azərbaycanın, həm də region ölkələrinin nəqliyyat potensialını əhəmiyyətli dərəcədə artıracaq",- deyə o diqqətə çatdırıb.

Aqil Əsədov qeyd edib ki, Azərbaycan, əməkdaşlıq ruhunu ön plana çəkərək ŞƏT ölkələri ilə əlaqələrini genişləndirməkdə maraqlıdır: "Bu əməkdaşlıq üzv ölkələr üçün nəqliyyat-tranzit imkanlarının və enerji resurslarının birgə istifadəsini genişləndirmək, eləcə də Azərbaycanda mövcud olan əlverişli investisiya mühitindən faydalanmaq baxımından yeni imkanlar yaradır. Azərbaycan artıq bir çox üzv ölkələrlə, o cümlədən Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Pakistanla yüksəksəviyyəli ikitərəfli münasibətlərə malikdir. Lakin bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensial mövcuddur.

Azərbaycanın ŞƏT-lə əlaqələrinin inkişafı regional təhlükəsizlik sahəsində daha sıx əməkdaşlıq imkanlarının yaranması, xarici investisiyaların cəlb edilməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşlarının artırılması, Çin, Rusiya, Hindistan və Orta Asiya ölkələri ilə iqtisadi əlaqələrin dərinləşdirilməsi, Zəngəzur dəhlizi və Orta dəhliz kimi layihələrə beynəlxalq səviyyədə dəstəyin artması, Avrasiya və Qərb arasında balanslı siyasətin daha da güclənməsinə xidmət edir".

Azərbaycan. - 2025.- 2 sentyabr (№185).- S.7.